**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# CON MAKSVELL KUTZEE YARADICILIĞINDA İNSAN VƏ CƏMİYYƏT PROBLEMİ

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilis ədəbiyyatı)

Elm sahəsi: Filologiya

İddiaçı: **Səbriyyə Yusif qızı İsmizadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Aynur Zakir qızı Sabitova** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Nailə Məmmədhüseyn qızı Sadıqova** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Leyli Əliheydər qızı Əliyeva** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Səadət Xalid qızı Abdurəhmanova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | filologiya elmləri doktoru, professor<br>**Azad Yəhya oğlu Məmmədov** |
| Dissertasiya şurasının elmi katibi: | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İradə Nadir qızı Sərdarova** |
| Elmi seminarın sədri: | filologiya elmləri doktoru, professor<br>**Şahin Həmid oğlu Xəlilli** |

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ölkəmizin öz müstəqilliyinə qovuşmasıyla həyatın bütün sahələrində müşahidə edilən sıçrayışlı inkişaf tempi heç şübhəsiz ki, elm və təhsildən də yan ötməmişdir. Aparılan uğurlu xarici siyasət sayəsində respublikamızın Avropaya inteqrasiyanı hədəf alması Qərb ədəbiyyatının, mədəniyyətinin tədrisi və araşdırılması işinə yeni və güclü təkan vermiş oldu. Bu mənada son onilliklərdə Azərbaycanda Qərb ədəbiyyatının, xüsusilə də ingilisdilli qabaqcıl yazar və şairlərin yaradıcılığının sistemli tədqiqi işinin yeni keyfiyyət mərhələsinə keçməsi təsadüfi görünmür. Belə ki, yaranan yeni kontaktlar sayəsində elm və təhsilin inkişafına töhfə verilməsi ölkəmizdə təhsil və elmi araşdırma standartlarına daha yüksək keyfiyyət əmsalı tələbini irəli sürmüşdür ki, bu da ədəbiyyat araşdırmalarının Qərb tədqiqat modellərinə uyğun təhlil və dəyərləndirilməsini təşviq etmişdir. Bu mənada ölkəmizdə müasir Qərb ədəbiyyatının aparıcı nümayəndələrinin yeni tədqiqat və təhlil standartları çərçivəsində araşdırılması xüsusi aktuallıq kəsb edir. Məlumdur ki, müasir Qərb ədəbiyyatı korifeyləri sırasında yer alan – 2003-cü ilin Nobel mükafatı laureatçısı, iki dəfə Buker mükafatına layiq görülmüş ilk yazar Con Maksvel Kutzeenin yaradıcılığı onilliklər boyu öz vətənində hökm sürən aparteid rejiminin ifşasını hədəf alır. Bu kontekstdə uzun onilliklər boyu istila keçmişinə, azadlıq mücadiləsi tarixinə malik olan ölkəmizin elmi ictimaiyyəti üçün Kutzee yaradıcılığının tədqiqinin mühüm aktuallıq kəsb edəcəyi danılmazdır. Kutzee yaradıcılığı insan şəxsiyyətinin kövrəkliyi və eyni zamanda sonsuz gücünün vəsf edilməsiylə yanaşı, insan və cəmiyyət probleminin; repressiya dönəmində insan şəxsiyyətinin sınma nöqtəsinə çatma və ya özünütənzim mexanizmlərini işə sala bilmə potensialının təhlili baxımından, ədəbiyyatşünaslığımız üçün əhəmiyyətli dərəcədə maraq kəsb edir. Kutzee yaradıcılığının araşdırılması istər müstəmləkə keçmişinə malik olmağımız səbəbiylə, istərsə də ümumbəşəri ideyaların mənimsənilib təhlil və tədrisi baxımından ölkə ədəbiyyatşünaslığı üçün mühüm aktuallığa malikdir.

Kutzee yaradıcılığının tədqiq coğrafiyası ən fərqli qitələrdə yerləşən onlarla ölkəni əhatə etdiyi halda, onun yaradıcılığının sistemli və geniş spektrli araşdırılması məsələsi günümüzədək ölkə ədəbiyyatşünaslığının gündəmində olmamışdır. Belə ki, C.M.Kutzeenin yaradıcılığında qaldırdığı və bilavasitə insan və cəmiyyət problemini əhatə edən mövzuların işlənmə səviyyəsi Böyük Britaniya [1], ABŞ [2], CAR [3], Kanada, Avstraliya [4], Almaniya [5], Niderland[6], İspaniya[7], Belçika[8], İsveçrə[9], Polşa[10] Çin, Hindistan[11], İordaniya və s. bu kimi Avropa, Asiya, Avstraliya, Cənubi Amerika və s. qitələrin ən müxtəlif ölkələrində yetərincə yüksək səviyyəsiylə seçilir. Bundan fərqli olaraq, Kutzee yaradıcılığına maraq keçmiş postsovet məkanı ölkələrinə yalnız yeni yüzilin başlanğıcında

---

[1] McCrum, R. The voice of Africa // The Guardian. – 2003, 5 October; Riding, A. Coetzee, Writer of Apartheid As Bleak Mirror, Wins Nobel // The New York Times. – 2003, 3 October və b.

[2] Gallagher, S. A Story of South Africa. J.M.Coetzee's Fiction in Context / S.Gallagher. – Harvard University Press: Cambridge, Mass, – 1991. – p. 274; Meskell L., Weiss L. Coetzee on South Africa’s Past: Remembering in the Time of Forgetting / American Anthropologist, Vol.108, No 1, March 2006, – p.88-99 və b.

[3] Gordimer, N. The Idea of Gardening // The New York Review of Books – 1984, February; Marais, M. Very morbid phenomena: “Liberal Funk”, the “Lucy-syndrome” and J.M.Coetzee's Disgrace // Scrutiny 2. Issues in English Studies in Southern Africa, – 2008, 31 May. – p. 32-38 və b.

[4] Wright, D. Fiction as Foe: The Novels of J.M. Coetzee // The International Fiction Review, – 1989. № 16.2, – p. 112-118; Leigh, J. Book of a Lifetime: Life and Times of Michael K, J.M.Coetzee / The Independent. – 8 may 2008.

[5] Horstmann, U. J.M.Coetzee: Vorhaltungen / U.Horstmann. – Frankfurt: Peter Lang, – 2005. – 148 p.

[6] Nijeholt, J.L. Eco-criticism in The Life & Times of Michael K and The Conservationist / J.L.Nijeholt. – Utrecht University, – June 2014, – 43 p.

[7] Lopez, M.J. Acts of Visitation: The Narrative of J.M.Coetzee / M.J.Lopez. – Rodopi. Amsterdam-New York, – 2011. – 374 p.

[8] Craps, S. J.M.Coetzee’s Waiting for the Barbarians and the Ethics of Testimony // English Studies – February 2007. Vol. 88, № 1, – p. 59-66.

[9] Silvani, R. Political Bodies and the Body Politic in J. M. Coetzee's Novels, (Transcultural Anglophone Studies) // LIT Verlag, – 2011. – 184 p.

[10] Stolarek, J. Problems of multiculturalism and multi-ethnicity in the Republic of South Africa in John Maxwell Coetzee’s selected works.

[11] Nirmala, S. The idea of othering in J.M.Coetzee’s Waiting for the barbarians // New Academia, – Oct. 2013. Vol. II Issue IV, – p. 9-14 və b.

yaranmağa başladı. Yaxın qonşumuz Rusiyada XXI əsrin əvvəllərindən etibarən Kutzee yaradıcılığı həm dissertasiya və monoqrafik tədqiqatların, həm də daha məhdud formatlı araşdırmaların təhlil hədəfinə çevrilmişdir. [12] Azərbaycanda Kutzee yaradıcılığının günümüzədək sistemli tədqiqat hədəfinə çevrilməməsi onun yaradıcılığının araşdırılması işinin ədəbiyyatşünaslığımız üçün mühüm aktuallığını şərtləndirmiş olur. Digər cəhətdən bu böyük qələm ustasının öz əsərlərində, demək olar ki, bütün yaradıcılığı boyu qaldırdığı insan və cəmiyyət probleminin ümumbəşəri aspektdən aktuallıq kəsb etməsi təqdim edilən dissertasiya araşdırmasına daha da aktuallıq qazandırmış olur. Belə ki, əslində faktiki olaraq özünün qeyri-müstəqillik tarixində Azərbaycanın və onun sıravi vətəndaşının qarşılaşdığı ayrı-seçkilik və öngörüş az və ya çox dərəcədə Kutzee qəhrəmanlarının üzləşdiyi cəmiyyət basqıları ilə paralellikdən xali deyil. Azərbaycan vətəndaşı keçmiş postsovet məkanında "fərqlilik" acısını yaşadığından Kutzee qəhrəmanlarının qarşılaşdığı çətinliklər onun üçün yabançı sayıla bilməz. Bu mənada Kutzee yaradıcılığının ana qayəsini, ideya-mənəvi nüvəsini təşkil edən insan və cəmiyyət probleminin çözüm arayışları Azərbaycan ədəbiyyatşünaslığı üçün aktuallıq daşımaya bilməz.

Məlumdur ki, *"çağdaş ədəbiyyatşünaslıq ədəbi-bədii fikrin özəlliklərini araşdırmaq və dəyərləndirməklə kifayətlənmir, müəyyən məqamlarda özü də psixologiya, fəlsəfə, sosiologiya, tarix, politologiya, mədəniyyətşünaslıqla çulğalaşaraq simbiozlar yaradır*

---

[12] Курбак, М.С. Исторические взгляды и творческая деятельность Дж.М.Кутзее: / автореф. дисс. кандидата исторических наук / – Москва, 2012. – 22 с.; Павлова, О.А. Категории «История» и «Память» в контексте постколониального дискурса (На примере творчества Дж.М. Кутзее и К. Исигуро): / автореф. дисс. кандидата филологических наук / – Москва, 2011. – 26 с.; Григорьева, К.А. Дж.М.Кутзее, южноафриканец: автобиография «Детство» // Изв. Сарат. ун-та. Нов. сер. Филология. Журналистика, – 2011. Т. 11, Вып. 1, – 93-98 с.; Григорьева, К.А. Автобиографическая трилогия Дж.М.Кутзее : жанровое своеобразие: / дисс. кандидата филологических наук / – Саратов, 2012. – 194 с.; Струкова, Е.А. Образ творческой личности в произведениях англоязычных постколониальных писателей Дж.М.Кутзее и С.Рушди: / автореф. дисс. кандидата филологических. наук / – Москва, 2016. – 18 с.

*və müstəqil dünyanıdərk formasına çevrilir"*[13]. Bu mənada təqdim edilən araşdırmada insan və cəmiyyət probleminin məhz psixoloji, sosioloji, tarix, politoloji, fəlsəfə və s. aspektlərdən dəyərləndirilməsinin aparılması onun (dissertasiya mövzusu əsasında aparılan tədqiqatın) müasir ədəbiyyatşünaslığın qarşısında duran tələblər baxımından aktuallığını tam əyaniliklə ortaya qoyur. İnsan və onun toplumdakı yeri və mövqeyi, insanın özü olmaq seçimi və bu yoldakı mənəvi mücadiləsi, "kiçik insan"ının topluma qarşı dirənişi, fərqlilik yükünün insana yaşatdığı məhrumiyyətlər – Kutzee yaradıcılığındakı insan və cəmiyyət meqaproblem "düyün"ünü təşkil edən bu problemlər silsiləsi dünən üçün aktual olduğu qədər, bu günümüz üçün də aktualdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müasir dünya ədəbiyyatının korifeylərindən sayılan Nobel, Buker mükafatları laureatı Con Maksvell Kutzeenin yaradıcılığı təşkil edir.

Tədqiqatın predmetini isə yazıçının əsərlərində insan və cəmiyyət probleminin qoyuluşu və problemə daxil olan "kiçik insanın" cəmiyyətə qarşı dirənişi, "fərqlilik" imtiyazı uğrunda mübarizə, insanın özü olmaq seçiminin ağırlığı və s. kimi həmin problemlər silsiləsinə daxil olan məsələlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Müasir dünya ədəbiyyatının flaqmanlarından sayılan, ingilisdilli romanın canlı korifeyi C.M.Kutzeenin yaradıcılığında insan və cəmiyyət probleminin qoyuluşu və həlli məsələsinin geniş spektrli sistemli araşdırması dissertasiya işinin məqsədini təşkil edir. Həmin məqsədin gerçəkləşdirilməsi üçün aşağıdakı vəzifələri reallaşdırmaq zəruridir:

– C.M.Kutzee yaradıcılığında insanın mənəvi gücü və cəmiyyətə dirəniş potensialı probleminin qoyuluşunun ideya-mənəvi əsaslarını müəyyənləşdirmək, romanda "kiçik insanın" "böyük faciəsi": cəmiyyətdə fərqliliyin ağır yükünün ifadə formasının müqayisəli təhlilini aparmaq;

– "Maykl K.-nın həyatı və zəmanəsi" romanında istibdadın alleqorik ifşasının reallaşma mexanizmlərini araşdırmaq, müəllifin təhkiyə gücünün onun "dolayı", metaforik ifadə yoluyla romandakı

[13] Quliyev, Q.H. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları / Q.H.Quliyev. – Bakı: Bəxtiyar-4 KM, – 2012. – 344 s.

insan və cəmiyyət qarşıdurmasının təqdimat özəlliklərini təhlil etmək; “Maykl K.-nın həyatı və zəmanəsi” romanında Kafka alleqoriyasının təsir izlərini müəyyənləşdirib Kutzee təhkiyəsiylə dahi sələfinin (Kafkanın) alleqorik ifadə üsulu arasındakı paralelləri aşkara çıxarmaq;

– “Maykl K.-nın həyatı və zəmanəsi” romanında “kiçik insan”ın mərhəmət və özünütəcrid dilemmasının mental səbəblərini müəyyənləşdirmək və Maykl K.-nın cəmiyyətdən “qaçış” təşnəsinin altında yatan mənəvi-etik faktorlara aydınlıq gətirmək;

– Kutzeenin “Elizabet Kastello” romanında insan və cəmiyyət probleminin ekzistensional-humanist müstəvidə təhlilini aparmaq;

– Kutzee yaradıcılığında əksini tapan və insanın cəmiyyət basqısına əks-təsir mexanizmlərini ifadə edən görüşlərini müəyyənləşdirmək; konkret olaraq, yazıçının “Maykl K.-nın həyatı və zəmanəsi” adlı romanda totalitar ekspansiyanın mənəvi-etik fəsadları haqqındakı müəllifin ədəbi görüşlərinin aparteid rejimiylə paralelliyi əsasında təhlillər aparmaq;

– Kutzeenin yaradıcılığında insanın cəmiyyət basqısı qarşısında acizliyinin və “acizliyin qisası” məqamının əks olunması formasını təhlil etmək; müəllifin “ağdərililik kompleksi” və ödənməyəcək borcun ağırlığı fonunda cəmiyyət basqısına duruş gətirmək mücadiləsi haqqında görüşlərini dəyərləndirmək;

– Kutzeenin yaradıcı şəxsiyyətinin formalaşmasında multikultural ideologiyanın aparteid reallığı ilə kəskin ziddiyyətinin təsirini müəyyənləşdirmək; onun yaradıcılığında totalitarizmə qarşı manifest kimi dəyərləndirilə biləcək “Barbarları gözləyərkən” romanında istibdad və zülmün ifşasının alleqorik ifadə üsullarını təhlil etmək; Kutzee romanlarındakı totalitar dövlətin ideya qaynaqlarını təşkil edən faktları, konkret olaraq, Britaniya-ingilis “əlahiddəliyi”nin Afrika təzahürü amilini dəyərləndirmək;

– Kutzeenin “Barbarları gözləyərkən” əsəri əsasında insanın cəmiyyət basqısı qarşısındakı gücü və gücsüzlüyünü şərtləndirən amilləri dəyərləndirmək; yazıçının köləliyin “anatomiyası” haqqında romanında əksini tapmış düşüncələrini izləmək; qorxunun şəxsiyyəti aşılayan faktor kimi mənəvi-psixoloji fəsadlarını təhlil etmək;

– Kutzeenin “Barbarları gözləyərkən” romanında insan və cəmiyyət probleminin qoyuluşunun K.Kavafisin “Barbarları gözləyərkən” və D.Butsattinin “Tatar çölü” əsərlərində eyni problemin həll variantı ilə qarşılaşdırmalı müqayisə aparmaq, Kutzeenin adı çəkilən sələflərilə ortaq və fərqli düşüncələrini müəyyənləşdirmək;

– Kutzeenin “Barbarları gözləyərkən” romanındakı “özgə” xofu sindromu və insanın “fərqliliyə” qarşı aqressiyanın etiologiyası haqqında görüşlərinin ideya-psixoloji zəminini müəyyənləşdirmək; Postkolonial ideya-fəlsəfi fikrinin əsas postulatlarından biri kimi “Othering” konsepsiyasının mahiyyətinin və ədəbi fikrə, konkret olaraq Kutzee yaradıcılığına təsirini təhlil etmək;

– Kutzeenin “Barbarları gözləyərkən” romanında günahkarlıq kompleksinin ağırlığının “İncil” allüziyaları fonunda səciyyələndirməsi kontekstində Magistrat obrazında Pontiy Pilat “göndərmələri”ni və İsa Peyğəmbər “göndərmələri”ni araşdırmaq;

– Kutzeenin yaradıcılığında insanın əbədi tənhalığı, şəxsiyyət deformasiyası və ruhi sarsıntılardan sonrakı psixoemosional bərpasının “anatomiyası” problemlərini dəyərləndirmək; konkret olaraq, “Rüsvayçılıq” romanında “düşmə”dən sonrakı həyatın “elegiyası” barədə və ya insan ruhunun əbədi sərgərdanlığı haqqında düşüncələrini araşdırmaq;

– Kutzeenin postaparteid dövr yaradıcılığına aid “Rüsvayçılıq” romanında yeni cəmiyyət reallıqlarının inikasını təhlil etmək; müəllifin “ağdərilik” yükü fenomeni haqqındakı görüşlərinin mental köklərini araşdırmaq; “Rüsvayçılıq” romanında insanın mənəvi “çöküş”ünün həlledici mərhələsi olaraq reallıqdan qaçışını və baş qəhrəmanda müşahidə edilən Bayron sindromunun şəxsiyyət deqradasiyası fəsadı kimi mental köklərini araşdırmaq;

– Postkolonial feminizmin postaparteid mərhələsini və onun Kutzee yaradıcılığında inikasını araşdırmaq; əsərdə qadın azadlıqlarının məhdudlaşdırılmasının “qaradərilik” revanşizmilə sintezini dəyərləndirmək;

– “Ölkənin ürəyində” romanında insan tənhalığı faciəsinin əksini və zorakılığın mental fəsadlarını araşdırmaq; real və irreal olanın çulğalaşmasının törətdiyi “paralel reallığın” baş qəhrəmanın –

“Maqdanın həqiqətləri”ndə inikasını izləmək; mazoxizmdən depressiv psixoza keçidin anatomiyası və ya “ünvanını səhv salmış” sevginin faciəsini təhlil etmək və s.

**Tədqiqat metodları.** C.K.Kutzeenin yaradıcılığına həsr edilən tədqiqatda tarixi-müqayisəli, tipoloji-təhlil metodlardan istifadə edilmişdir. Həmçinin ədəbi-tənqidi, elmi-nəzəri təhlil və elmi ümumiləşdirmələr ədəbiyyatşünaslığın müasir problemləri müstəvisində yerinə yetirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– C.M.Kutzeenin “Maykl K.-nın həyatı və zəmanəsi” romanında “kiçik insan”ın cəmiyyətə qarşı dirənişini mümkün edən daxili potensialı tam dolğunluğuyla açıqlanır, romanda “fərqli” insanın cəmiyyətdə fərdiliyini qoruma mücadiləsinin anatomiyası izlənilir.

– Dolayı təhkiyə, metafora ustası olan Kutzee hələ aparteidin tüğyan etdiyi dönəmdə qələmə almış olduğu romanında bir çox aktual problemlərin alleqorik təhkiyə formasında çatdırılmasına müvəffəq olur və bu zaman heyranlıq duyduğunu etiraf etdiyi Kafka yaradıcılığından da təsirlənir.

– Kutzeenin “Elizabet Kastello” romanında insan və cəmiyyət probleminin bir çox aspektlərini hədəf almaqla öz yazıçı alter-eqosunun diliylə insan övladının varoluş, yaşam, ideya mücadiləsi kimi məsələlərə mövqeyini açıqlayır.

– Kutzee öz yaradıcılığı boyu vətənindəki aparteid rejiminin qaradərili əhaliyə qarşı repressiya siyasətindən duymuş olduğu utancı və kompleksini dilə gətirir və bir ağdərili toplum olaraq ödənməyəcək bir borc kimi gördüyü ağdərili imtiyazı “günah”ının yol açdığı kompleksini obrazlarının “özünü cəzalandırma” meylliliyində ifadə edir.

– Kutzee öz yaradıcılığında, xüsusilə də “Barbarları gözləyərkən” romanında totalitar rejimlərin insanları kütləvi psixoz vəziyyətinə salmaq üçün izlədikləri “beyinyuma” əməliyyatları və psixoemosional təzyiq mexanizmlərinin anatomiyasını açıqlayır.

– Kutzee “Barbarları gözləyərkən” romanında K.Kavafisin eyniadlı (“Barbarları gözləyərkən”) və D.Butsattinin “Tatar çölü” əsərlərindən az və ya çox dərəcədə təsirlənsə də, istibdad rejimlərini ifşa edən tamamilə yeni ağır dramatik təsir güclü roman ortaya qoymağa müvəffəq olur.

– Kutzee yaradıcılığında postkolonial ideya-fəlsəfi fikrinin əsas postulatlarından olan "Othering" konsepsiyasının inikasını təsbit etmək olar ki, bu da yazıçının "özgə" xofu sindromu və insanın "fərqliliyə" qarşı aqressiyanın etiologiyası haqqında görüşlərinin açıqlamasına yol açır.

– Kutzeenin "Barbarları gözləyərkən" romanında günahkarlıq kompleksinin ağırlığının "İncil" allyuziyaları fonunda təhlili müəllifin dini-fəlsəfi görüşlərini təsbit etməyə imkan verir.

– C.M.Kutzeenin yaradıcılığında insanın əbədi tənhalığı, şəxsiyyət deformasiyası və ruhi sarsıntılardan sonrakı psixoemosional bərpasının "anatomiyası" problemlərinin təhlilinə geniş yer verilir, konkret olaraq, yazıçının "Rüsvayçılıq" romanında insanın mənəvi çöküşündən sonra onun həyata qayıdışının "elegiya"sı təqdim edilir və insan ruhunun ədəbi sərgərdanlığı problemi, Bayron sindromu və s. əlaqəli məsələlər geniş şəkildə aşkar edilir.

– "Rüsvayçılıq" romanında postkolonial feminizmin postaparteid mərhələsinin problemləri işıqlandırılır və qadın azadlığının məhdudlaşdırılmasının "qaradərili" revanşizmilə vəhdəti məsələsi postaparteid reallıqları kontekstində önə çıxır.

– Kutzeenin "Ölkənin ürəyində" romanında insan tənhalığı faciəsinin əksi və ya zorakılığın mental fəsadları dolğun təhlil həllini tapır, reallıq və irreal olanın çulğalaşmasının törətdiyi "paralel reallıq" məqamına istinadən "gerçəklikdən qaçış" – psixoloji durumunun xronologiyası izlənilir və bu kontekstdə depressiv psixoza keçidin anatomiyası və ya "ünvanını səhv salmış" sevginin faciəsi izlənilir. Müəllif iki qəhrəmanın real və irreal münasibətləri zəminində cəmiyyətdə irqi qarşıdurmanın psixoloji fəsadlarının dəhşətli miqyasını nümayiş etdirməyə müvəffəq olur.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim edilən araşdırmanın elmi yeniliyi Azərbaycan ədəbiyyatşünaslığında müasir dünya ədəbiyyatının ən görkəmli nümayəndələrindən olan C.M.Kutzee yaradıcılığının ilk dəfə olaraq araşdırılmasını hədəf alan ilk tədqiqat işi olması ilə şərtlənir. Tədqiqat işinin elmi əhəmiyyətini artıran digər mühüm cəhət təqdim edilən dissertasiya araşdırmasının təkcə Azərbaycan ədəbiyyatşünaslığında deyil, ümumilikdə müasir ədəbiyyatşünaslıqda ilk dəfə olaraq, Kutzee yaradıcılığında insan və cəmiyyət

münasibətlərinin etik-əxlaqi, mental, ideoloji aspektlərinin sistemli təhlilinin hədəf alınmasıyla bağlıdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyətini şərtləndirən ən mühüm cəhətlərdən biri dissertasiyada Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq, müasir dünya ədəbiyyatının ən görkəmli nümayəndələrindən sayılan C.M.Kutzeenin yaradıcılığının sistemli təhlil hədəfinə çevrilməsiylə şərtlənir. Bu isə tədqiqat işini Kutzee yaradıcılığının digər aspektlərinin təhlilinə köklənmiş növbəti nəsil araşdırmaların meydana gəlməsində mühüm töhfə verə biləcəyi və bununla da nəzəri əhəmiyyətliliyini bir daha ortaya qoyacağı danılmazdır. Digər tərəfdən dissertasiya işində ilk dəfə olaraq məhz Kutzee yaradıcılığında insan və cəmiyyət probleminin qoyuluşu və həllinin təhlilinin aparılması təqdim edilən araşdırmanın müasir ədəbiyyatın, xüsusilə müasir ingilisdilli yazarların yaradıcılığında təklif olunan təhlil həllərinin tədqiqi işi üçün müəyyən forma, araşdırma standartı ortaya qoya bilməsi baxımından da mühüm elmi əhəmiyyətini şərtləndirir. Bu baxımdan dissertasiya müasir ingilisdilli ədəbiyyatın digər nümayəndələrinin yaradıcılığında insan və cəmiyyət probleminin təhlili çərçivəsində həm yararlı təhlil modeli kimi istifadə edilə, həm də müqayisə predmeti kimi də dəyərləndirilə bilər.

Tədqiqat işinin praktik əhəmiyyətinə gəlincə, araşdırma əsnasında əldə edilən elmi nəticə və ümumiləşdirmələr "Dünya ədəbiyyatı", "Müasir ingilisdilli ədəbiyyat", "Postkolonial ədəbiyyat" və s. bu kimi əsas və seçmə fənlərin tədrisi işində, eləcə də magistratura pilləsində tədris edilən əlaqəli fənlərin tədrisi işində istifadə oluna bilər. Dissertasiya işi əsnasında əldə edilmiş elmi nəticə və ümumiləşdirmələr təkcə doktorantura pilləsində aparılan elmi araşdırmalarda istifadə ilə məhdudlaşmayıb, magistratura pilləsindəki dissertasiya tədqiqatlarında da istifadəyə cəlb oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas nəzəri müddəaları və praktiki təklifləri elmi mətbuatda, elmi-praktiki və beynəlxalq konfransların tezislərində öz əksini tapmışdır. Dissertasiya işinə dair müxtəlif məcmuələrdə 11 məqalə və 6 tezis çap edilmişdir. Bir məqalə və iki tezis xarici ölkədə nəşr olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 9 səhifə, 16006 işarə, I fəsil – 35 səhifə, 68317 işarə, II fəsil – 44 səhifə, 86688 işarə, III fəsil – 45 səhifə, 86915 işarə, nəticə – 4 səhifə, 5909 işarə, dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 263835 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri təsbit edilir, tədqiqatın elmi yeniliyi, metodologiyası, nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirir, müdafiəyə çıxarılan müddəalar, tədqiqat işinin aprobasiyası və quruluşu haqqında məlumat təqdim edilir.

Dissertasiyanın **"C.M.Kutzee yaradıcılığında insanın mənəvi gücü və cəmiyyətə dirəniş potensialı probleminin qoyuluşu"** adlanan I fəslinin ilk paraqrafı ***"Maykl K.-nın həyatı və zəmanəsi" romanında "kiçik insanın" "böyük faciəsi": cəmiyyətdə fərqliliyin ağır yükü"*** adlanır. Bu paraqraf çərçivəsində "Maykl K.-nın həyatı və zəmanəsi" romanı istibdadın alleqorik ifşası kimi: "kiçik insanın" metamorfozları" problemlərinin sistemli təhlili təqdim olunur. Kutzeenin 1983-cü ildə işıq üzü görmüş və yazıçıya ilk Buker mükafatını qazandırmış "Maykl K.-ının həyatı və zəmanəsi" romanı hələ aparteid rejiminin tüğyan etdiyi illərdə qələmə alınmışdır. *"Kutzeenin özünü "cəmiyyətin hayqıran səsi" kimi görməməsinə baxmayaraq, o, qanundankənar, qanun yaradıcılığının fövqündə duran uca ədalətin olduğuna inanırdı".*[14] Bu inanc R.Silvaninin qeyd etdiyi kimi, aparteid rejiminə etiraz və narazılıqların ən optimal yolu

[14] Marques, I. Transnational Discourses on Class, Gender, and Cultural Identity / I.Marques. – Purdue University Press, – 2012. – 220 p.

kimi, Kutzeenin qələmə sarılmasını labüd etmişdi.[15] Kutzeenin özü etiraf edir ki[16], hərdən onun özünü də əsərlərində siyasi "üst layın", siyasiləşmiş "üst qatın" həddən artıq çox olub-olmaması ilə bağlı suallar məşğul edir. Bu mənada "Maykl K.-ının həyatı və zəmanəsi" romanında Kutzee yaradıcılığı üçün xarakterik olan və onun bütün romanlarından "qırmızı xəttlə" keçən "insan və cəmiyyət" probleminin işıqlandırılması və bunun alleqorik tərzdə[17] təqdim edilməsi tam anlaşılandır. Romanda Kutzee həmin problemi yeni aspektlərdə: "kiçik insan"ın cəmiyyət basqısına dirənişi, onun "özü olmaq" hüququnu qorumaq mücadiləsi və "səssiz etiraz"ın mənəvi-psixoloji apofeozu kimi "fərqlilik imtiyazı"nı nümayiş etdirməkdən çəkinməməsi aspektlərində araşdırır. Kutzee bu romanında bir daha ton, yarımton, metaforik keçid, alleqoriya ustası kimi romanlarında mövcud cəmiyyət problemlərinin pritçavari, dolayı və əslində, insanın şüuraltına təsirinə hesablanmış gedişlərin ustası kimi ortaya çıxır. Öz qəhrəmanını real situasiyalara salan Kutzee bununla da onun daxili aləminin gizlinlərini ortaya qoyur. Eyni zamanda həmin gizlinlərin aydınlığa çıxması da məntiqi olaraq, cəmiyyətin gizlinlərinin ifşasına çevrilir.

Özünəxas və təkrarsız olan, eyni zamanda isə, bir növ Kafkavari sayıla biləcək təhkiyəsiylə Kutzee gündəlik həyatın sosial-siyasi problemlərinə daha dərindən baş vurur, insan-cəmiyyət vəhdəti və qarşıdurması aspektində ekzistensiya məsələlərini geniş rakursdan araşdırır. Kutzeenin nəsr təhkiyəsi bununla bir fərqli poetika, dərinlik qazanır. Kutzee *təhkiyəsini borokko ruhlu, rəngarəng, başgicəlləndirici, hiperreal olmaqla yanaşı, fantastik, tragikomik, möhtəşəm* kimi epitetlərlə mükafatlandırmış C.Li burada hakimiyyətlə üzləşməkdə çəkinən "*sadə, əslində emosional-hissiyyat*

[15] Silvani, R. Political Bodies and the Body Politic in J. M. Coetzee's Novels, (Transcultural Anglophone Studies) // LIT Verlag, – 2011. – 184 p.
[16] Morpher, T. An Interview with J.M.Coetzee // Social Dynamics, – 1984. Vol. 10, № 1, – p. 62-65.
[17] Ansari, J. The Political Discourse in J. M. Coetzee's Life and Times of Michael K / J.Ansari, M.Gupta // Galaxy, International Multidisciplinary Research Journal, – March, 2016. Vol. 5, Issue 2, – p. 27-38; Corbett, B. Life and Times of Michael K. By J.M.Coetzee / The Viking Press. – New York, 1984.

*baxımından sadə bir insanın*" faciəvi dirənişinin böyük ustalıqla qələmə alındığını qeyd etmişdir.[18]

***"Maykl K.-nın həyatı və zəmanəsi" romanında istibdadın alleqorik ifşası: "kiçik insanın" metamorfozları"*** bəndində qeyd edilir ki, Maykl K.-nın obrazını daha da cazibədar edən cəhət onun sonunadək öz daxili gücünün möhtəşəmliyinin, dirənişinin prinsipiallığının fərqinə vara bilməməsidir. Belə ki, hətta düşdüyü düşərgədə yeməkdən imtina edən və "Belə yeməyi yemirəm" – deyərək "çubuq əlləri ilə yemək şüşəsini itələyən" Maykl K. əslində, əgər belə demək olarsa, daha betər yeməyi yeyə bildiyinin də fərqinə varmır. Maraqlıdır ki, Maykl düşərgə həyatının elə ilk günündən məhbəs yeməyini həzm edə bilmirdi. Bitkilərin kökləri, həşərat gövdələri ilə qidalana bilən Maykl K.-nın düşərgə yeməyindən imtinasının əslində yeganə səbəbi – düşərgə tibb işçisinin sonunda düzgün dəyərləndirə bildiyi kimi ("*Orqanizmi bu yeməyi qəbul etmir. Bəlkə yalnız azadlığın çörəyini yeyə bilir*"), onun məhbəs yeməyi yeyə bilməməsidir. Heç şübhəsiz ki, burada Kutzee yeməyi də müəyyən alleqorik simvol kimi ortaya qoyur və baş qəhrəmanının daxili gücünü bu təzadlılıq əsasında təkrarsız ustalıqla ortaya qoyur. Kutzeenin təhkiyəsinin möhtəşəmliyi, alleqorik ifadə tərzinin aparteid istibdadının ifşasını hədəf aldığı simvolik keçidləri bununla bitmir. Kutzeenin öz yaradıcılığında estetik məqamlardan daha çox siyasi və mənəvi problemlərin hədəf alması ilə bağlı səsləndirilən bəzi fikirlərə rəğmən,[19] göründüyü kimi, Kutzeenin təhkiyəsinin təkrarsız estetikaya, özünəməxsus simvoliklik və alleqorik modellərə malik olmasını inkar etmək olmaz. Hətta bir çox tədqiqatçılar[20] haqlı olaraq, Kutzee yaradıcılığına Bekket və xüsusilə də Kafkanın müstəsna təsir etdiyini qeyd edirlər. Maraqlıdır ki, yazıçı özü bunu etiraf edir.[21] Kutzeenin yaradıcılığında Kafkanın[22] təkcə "Qəsr"

---

[18] Leigh, J. Book of a Lifetime: Life and Times of Michael K, J.M. Coetzee / The Independent. – 8 may – 2008.

[19] Shapiro, J. The Critic's Teeth // The New York Times. – 2001, 16 September

[20] Kaplan, B.A. Landscapes of Holocaust Postmemory / Routledge: Taylor and Francis Group, – 2010. – 272 p.

[21] Contemporary Fiction Views / J.M.Coetzee & the Pursuit of Happiness. – 2012, Nov. 28.

romanına deyil, eləcə də "Məhkəmə" əsərlərinə müəyyən "göndərmələrin" olduğu danılmazdır. Kutzee romanlarında reminissensiya əsaslı xatırlatmalar, kvazisitat xarakterli "göndərmələr" (məs., Kafkanın "Məhkəmə" romanının baş qəhrəmanının son replikasıyla Kutzeenin "Rüsvayçılıq" romanının protaqonistinin eyni ifadəsinin kvasitatlığı: "Like a dog!" "İt kimi"), allüziyalar sonuncunun öz sələfinin yaradıcılığından təsirləndiyinə şübhə yeri qoymur. Kutzeenin Maykl K.-sı da sonda özünü soxulcanla müqayisə edir. Özünün çəkdiyi məşəqqətləri insanlara danışmaqdan imtina edən Maykl bu qərarında etiraf edir: "*Mən soxulcan kimiyəm, – Maykl fikirləşdi. – Müəyyən mənada soxulcanı da bağban saymaq olar. Köstəbək də torpaq qazır, lakin özü danışmır, səssiz yaşayır".*[23] Bəs soxulcan və ya köstəbəyin asfaltda işi nədir? Əsərin sonluğu da yeni həyatın başlanğıcının müjdəsini verir, məhv olmuş arzuların yenidən cücərə biləcəyini, "soxulcan-bağbanın" can verdiyi, yeni ruh verdiyi torpağın yaxşı suvarılmış, becərilmiş bağ-bağata çevrilməsi ümidi dilə gətirilir. Maykl ümid edir ki, vaxt gələcək və o, öz əziyyətlərinin bəhrəsindən zövq alarcasına bağına məmnunluqla göz gəzdirərək sahiblik duyğusunu yaşayacaq.

***"Maykl K.-nın mərhəmət dilemması: cəmiyyətdən könüllü təcridin mental səbəbləri"*** bəndində Maykl K.-nın fiziki qüsurunun onun psixoloji portretinin davamı kimi ortaya çıxmasına diqqət çəkilir. "*Uşağın dodağı ilbiz ayağı kimi burulmuş, burnunun sol dəliyi ilə geniş açılmışdır. Mamaça Mayklı bir anlıq anasının gözündən gizləyib balaca ağzını barmağıyla araladı, damağının bütöv olduğunu görüb Tanrıya şükür etdi"*[24]. Kutzee romanlarında alleqoriyanın "şahanə, təkəbbürlü ikrahın ifadəsi və ya şok vəziyyətinin dilmancı" kimi istifadə edildiyinə diqqət çəkən N.Qordimer Maykl K.-nın "dovşan dodaqlı" olmasının simvolikliyinə diqqət

---

[22] Lehmann-Haupt, C. Books of The Times // The New York Times. – 1983, 6 December.

[23] Kutzee, C.M. Maykl K.-nın həyatı və zəmanəsi / C.M.Kutzee, ing. tərc. ed. Ü.Nəsibbəyli. – Bakı: Qanun, – 2014. – s.237

[24] Yenə orada, s.5

çəkir[25]. D.Attridge də Mayklın dodaqlarının kəsirliliyinin əslində əhalinin bəzi təbəqələrinin üzləşdiyi çətinlik və məhrumiyyətlərinin “alleqorik indikatoru” olduğunu vurğulamışdır [26]. B.J.Eckstein iddia edir ki, dodaq deffektinə görə, aydın və səlis nitq ifadə edə bilməyən Mayklın danışığının yaratdığı reaksiya aparteid rejiminin qaradərili toplumuna münasibətini alleqorik yolla inikas etdirir[27]. Maraqlıdır ki, dovşan dodaqlılığın alleqorik müstəvidə çözümü kifayət sayda tərəfdar topladığı halda, bu yanaşma həm bəzi tədqiqatçıların, həm Kutzeenin özü tərəfindən etirazla qarşılanmışdır[28]. Əslində, Kutzee qəhrəmanını dodaq deffektindən dolayı, yanlış, yəni sırf fonetik-artikulyator qüsurlu nitqi xarakterizə etmir. Maykl K.-nı ilk növbədə onun *susqun etirazı, sözsüz manifesti, səssiz hayqırtısı* səciyyələndirir. Maykl K.-nın cəmiyyətdəki haqsızlıqlara özünütəcrid yolu ilə etirazı, əslində Kutzee qəhrəmanları üçün xarakterik olan mübarizə yoludur.

***“Kutzeenin “Elizabet Kastello” romanında insan və cəmiyyət probleminin ekzistensional-humanist müstəvidə təhlili”*** paraqrafında qeyd edilir ki, insanın ekzistensial varlıq kimi çəkdiyi ağrı-acılar, onun həyatda yeri, istəyi, həyatının mənası və s. problemləri yazıçının 2003-cü ildə qələmə aldığı “Elizabet Kastello” romanında obyektivliklə təsvir olunur. Müəllif nəinki insanlığa gülür, yeri gələndə özünü də ələ salır, yazıçının oxucu qarşısında “məzhəkə” qurduğunu, gözəgörünməz varlığın isə “oyuncağı” olduğunu çatdırmağa çalışır. Bütün romanlarında olduğu kimi yazıçı bu əsərdə də günah hissinin qaçılmaz olduğunu vurğulayır, bu absolyut günahın bütün insanlara və bəşəriyyətə aid olduğunu söyləyir. Əsər avtobioqrafik romandır və Elizabet Kastello yazıçının qadın alter-eqosudur. Uydurulmuş yazıçının həyat hekayəsində

---

[25] Gordimer, N. The Idea of Gardening // The New York Review of Boks – 1984, 2 February

[26] Vilarino, M.B. Apartheid in J.M.Coetzee’s Boyhood, Life & Times of Michael K and Disgrace / Universidade da Coruna, – 2015. – 59 p.

[27] Eckstein, B.J. The Language of Fiction in a World of Pain: Reading Politics as Paradox / B.J.Eckstein. – Philadelphia: University of Pennsylvania Press, – 1990. – 185 p.

[28] Bohm, A. Coercion to Speak in J. M. Coetzee’s Life & Times of Michael K // The International Fiction Review, – 2000. – Vol. 27, Numbers 1 and 2

Kutzee müasir insanın cəmiyyətdə yeri, mövqeyi və başa düşülmək yanğısını təsvir edir. Kutzee "insan kimdir", "bu dünyada ona nə lazımdır" – kimi ən sadə, lakin cavabı birmənalı olmayan suallara cavab axtarmağa çalışır. Roman eklektik esse-mühazirələrdən ibarət olub səkkiz hissəyə bölünür. Elizabet Kastello tipik Kutzee personajıdır və özündə fiziki və metafiziki yorğunluğu daşıyan yaşlı qadın obrazıdır. O, dünya səyahətinə çıxır, nə özünə, nə də kimsəyə lazım olmayan yığıncaqlarda iştirak edir. Ədəbi mükafatın ödül mərasimində çıxış edir, varlı insanları əyləndirmək üçün mühazirələr oxuyur, şər qüvvələrə qarşı keçirilən seminarlarda iştirak edir, özünün də marağında olmadığı, onu anlayıb başa düşməyən insanlarla polemikalara girir. Kastellonun düşüncələri böyük Kafkanın əsərləri üzərində qurulur. "Yaradıcılıq nədir", "yazıçının taleyi və onun yaradıcılığı nəyə xidmət edir" kimi məsələləri qaldıran Kutzee ədəbiyyatın əbədi problemi olan insan problemini yaddan çıxarmır. Kutzee heyvanların müdafiəsi və onu əhatə edən mühit mövzusunu qaldırsa da, dolayısı ilə insan problemini çözməyə çalışır. Yazıçı və onun alter-eqosu olan Elizabet Kastello dəfələrlə yer üzündəki bütün canlıları və onların ətraf mühitini sevdiyini dilə gətirir. Elə bu yanaşmayla bağlı yazıçının qəhrəmanı təbiətin təməl başlanğıcı ilə birləşməyə çağırır və lakin adi həyatda olduğu kimi hər zaman da anlaşılmazlıqla qarşılanır. İlk baxışdan qıcıq doğuran heyvan polemikasının altında əslində dünyaya baxış və bəşəriyyətdə baş verən kataklizmlərə münasibət bildirir. Şəri təcəssüm edən İblis obrazı XX əsrdə iki Dünya müharibəsini və saysız-hesabsız vətəndaş müharibələrinə rəvac verən qüvvədir. Elə bu baxımdan da Kastello şəri təbliğ edən yazıçı Pol Uesteni başa düşmür. Kastelloya görə yaradıcı insan gözəlliyi təbliğ edir və xeyir gözəllikdir. Uestin təsvirində qəbahət var və əgər tarixdə bu hadisələr yer alıbsa onları üzə çıxarmaq olmaz. Yazıçı Pol Uestin Hitlerin əməllərindən bəhs edən kitabını çıraqda gizlənən cinin üzə çıxmasına bənzədir: *"Dünyanı şər qüvvələr idarə edir"* [29] deyən Kastello onu oyatmamağa səsləyir, ən yaxşı halda sakitliyi qoruyub, onun haqqında susmağı üstün tutur. Kutzeeyə görə yazıçı "gözəgörün-

---

[29] Coetzee, J.M. Elizabeth Costello: [Electronic resource] / URL: https://unotices.com/book.php?id=41947&page=1

məzin katibi", medium, ali qüvvənin sözlərini çatdıran insandır və bu baxımdan onun yazılarında məna axtarmaq düzgün deyil.

**"C.M.Kutzee yaradıcılığında insanın cəmiyyət basqısına əks-təsiri: totalitar ekspansiyanın mənəvi-etik fəsadları"** adlanan II fəslin ilk paraqrafında ***"C.M.Kutzeenin yaradıcılığında insanın cəmiyyət basqısı qarşısında "acizliyi və "acizliyin qisası" məqamı"*** problemi araşdırılır. Düşünən ziyalı, vicdanlı vətəndaş, həssas yaradıcı şəxsiyyət olaraq Kutzee gözünü açdığı, özünü tanıdığı dövrdən etibarən uzun onilliklər boyu içində yaşamış olduğu irqi seqreqasiya, sosial ədalətsizlik, milli ayrı-seçkiliyin yükünü, "seçilmişlərdən", yəni ağdərililərdən olmağın "utanc"ını, özünün irqi, milli kimliyinə görə ölkədə cərəyan edən zülm və ədalətsizliklərin məsuliyyət yükünü bölüşmək ağrısını yaşayır.

***"C.M.Kutzeenin "Barbarları gözləyərkən" əsərində köləliyin anatomiyası: qorxu – şəxsiyyəti aşılayan faktor kimi"*** bəndində qeyd edilir ki, Kutzee yaradıcılığında çözüm gətirilən insan və cəmiyyət probleminin ən ağrılı məqamlarından birini şəxsiyyətin dövlət "maşını", ideoloji dominantlıq qarşısında acizliyi, ixtiyarsızlığı məsələlərilə; onun hüquq və azadlıqlarının tapdanması fonunda etiraz imkanlarından və ya etiraz gücündən məhrum olması kimi məqamlarla bağlıdır. Dominic Head haqlı olaraq ona diqqət çəkir ki, Kutzee həmişə – bütün yaradıcılığı boyu kolonial mövzunun "ön cərgəsi"ndə olmuşdur və o, heç vaxt öz zəminindən kənarlaşaraq ümumAvropa humanist ideyalarının carçısı kimi çıxış etməmişdir. Bu vəziyyət istər aparteid, istərsə də postaparteid dövründə izlənilmişdir[30]. Başqa sözlə desək, Kutzee bəşəri ideyaları təbliğ edən, onun fərdi humanist görüşlərini bəyan edən ümumAropa liberalizminə uyğunlaşmırdı. "Kutzee qəhrəmanlarının əsas problemi, uğrunda mübarizə apardığı əsas məsələ şəxsiyyətin daxili aləminə aid fərdi azadlığın sərhədlərinin cəmiyyətdəki hakim ideologiyanın, özü də bütöv cəmiyyətdə konsensusun standartları aspektində nəzərdən keçirilən ideologiyanın sərhədlərinə nə dərəcədə

[30] Head, D. The Cambridge Introduction to J.M.Coetzee / D.Head. – Cambridge University Press, – 2009. – 131 p.

müdaxilə edə bilməsi ilə bağlıdır”[31].

***“C.M.Kutzeenin “Barbarları gözləyərkən” romanında insan və cəmiyyət probleminin qoyuluşu (K.Kavafisin “Barbarları gözləyərkən” və D.Butsattinin “Tatar çölü” əsərlərilə müqayisədə)”*** adlanan bölümdə bildirilir ki, “köçəri süjet” anlayışından doğan təhlil parametrləri Konstantin Kavafis, Dino Butsatti və Kutzee yaradıcılığı üçün ortaq olan “mifik düşmən gözləntisi” problemli əsərlərinə də şamil edilə bilər. K.Kavafisin 1904-cü ildə qələmə aldığı “Barbarları gözləyərkən” şeiri, D.Butsattinin 1940-cı ilə yazdığı “Tatar çölü” romanı və nəhayət, Kutzeenin 1980-ci ildə işıq üzü görmüş “Barbarları gözləyərkən” romanı əslində eyni süjet xəttinin fərqli zaman kəsiyi, fərqli etnik ortamda təqdimatı, fərqli periferik problemlər əhatəsində yaradıcı fəhmin spesifikliyindən doğan təkrarsızlıqla reprezentasiya müxtəlifliyindən başqa bir şey deyil. Hər üç əsərdə ana xətt, əsas (qeyri-periferik) süjet xətti olaraq insan(lar)ın mifik düşmən gözləntisi və həmin gözləntinin yaratdığı qorxu, isteriya və ya inertliyin bu və ya digər şəkildə real həyatı iflic vəziyyətinə salması ideyası nəzərdə tutulur. Barbarların hücumu ilə bağlı gözlənti və bu hücuma münasibət həmin şerin adını başlığa çıxartmış Kutzee romanındakı analoji vəziyyətin qoyuluş tərzindən əsaslı şəkildə fərqlənir. Başqa sözlə desək, dahi yunanlının antik mədəniyyətin süqutu ilə bağlı sosial-siyasi vəziyyətin sarkastik şərhi Kutzeenin roman-pritçasındakı insan və cəmiyyət problemindən mahiyyəti etibarilə fərqlənir. Əgər birinci əsərin “sətirləri arasında” cəmiyyətin apatik gözləntiləri və inert yanaşması ilə bağlı acı təəssüf dolu ironiyanı, məğlubiyyətin etirafı fonunda gələcəkdə düşmənin hakimiyyətinin qəbul edilməsi bəyanatı “oxuyuruqsa”, Kutzee romanında insan-cəmiyyət probleminin digər rakurslu təhlililə qarşılaşırıq. Burada da düşmən hücumunun gözləntisi aparıcı leytmotivdir və süjet xətti və müəllifin oxucuya ünvanladığı mesajlar məhz bu ideya xəttinə istinadən verilsə də, cəmiyyətin kökündən fərqli münasibəti və eləcə də insanın həmin cəmiyyətdəki tam fərqli davranış modelinin təsvir və təhlilini müşahidə edirik. Göründüyü kimi, İmperiya daimi xof, düşmən hücumu qorxusu altında yaşayır.

[31] Kwai-yick, H. Ideology in the novels of J.M.Coetzee / H. Kwai-yick. – Open Dissertation Press, – 2017. – 149 p.

Kavafisin İmperiyasından fərqli olaraq, burada hər şey və hər kəs müharibəyə, əks-hücuma hazır vəziyyətdədir. Kutzeenin D.Butsattinin "Tatar çölü" romanından ciddi şəkildə təsirləndiyi yazıçının irsinin demək olar ki, bütün tədqiqatçıları tərəfindən[32] yekdilliklə etiraf edilmişdir. Borxesin "*deşifrə edilməsi nə psixologiya, nə də ritorikaya müvəffəq olmayan sehirli sirr*" olaraq dəyərləndirdiyi[33] "Tatar çölü" romanda və eləcə də Kutzeninin "Barabarları gözləyərkən" romanda təsvir edilən hadisələrin əsas fonu kimi mifik düşmən ordusunun hücumuna hazırlıq vəziyyəti süjet karkası, təhkiyənin bünövrəsi olaraq nəzərdən keçirilir. Hər iki roman üçün səciyyəvi olan insan və cəmiyyət, insan və mövcudluq problemlərinin qoyuluşundakı oxşar və fərqli məqamlarla bağlı ilk olaraq, onu deyək ki, hər iki əsər bilavasitə qarnizon – hərbi həyatın təsviri səhnəsilə başlayır. D.Butsattinin əsərində oxuyuq: "*Droqo indi Şimal dünyasının bir parçasını, bir hissəsini – heç kəsin keçmədiyi ölü düzənliyi müşahidə edirdi. Heç vaxt o tərəfdən düşmənlər sərhəddi keçməmişlər. Heç vaxt orda döyüşlər baş verməmişdir. Heç vaxt heç nə baş tutmamışdır*" [34]. "Barbarları gözləyərkən" romanda Magistratın dilindən oxşar etirafı eşidirik: *"Şayiələrə görə, barbar qəbilələri silahlanırlar. İmperiya tədbir görməsə, müharibə qaçılmaz olacaq. Özüm belə hallarla üzləşməmişəm. Şəxsi müşahidələrim göstərir ki, barbarlar haqqında yayılan şayiələr hər otuz-qırx ildən bir həyəcana səbəb olur".*[35] Göründüyü kimi, burada da sərhəddi aşa biləcək düşmənin real

---

[32] Эдельштейн, М. Жизнь и время Джона К. Дж.М.Кутзее. В ожидании варваров. Романы. / М. Эдельштейн. – СПб., "Амфора", – 2004. – 463 с.; Алехнович, А.С. Роман-парабола Дж.М.Кутзее «В ожидании варваров»: оформление экзистенциального сознания» // – Москва: Изд-во Моск. гуманит. ун-та. Тезаурусный анализ мировой культуры, – 2011. Сб. науч. трудов. Вып. 21, – с. 64-74; Алехнович, А.С. Жанровое своеобразие романа Дж.М.Кутзее «В ожидании варваров» // Знание. Понимание. Умение. Филология, – 2010. №5.

[33] Каспэ, И. Пограничная крепость Буццати: [Электронный ресурс] / 1999. URL: http://www.ng.ru/ng_exlibris/1999-10-07/buccati.html

[34] Буццати, Д. Татарская пустыня: [Электронный ресурс] / URL: http://www.lib.ru/INPROZ/BUCCATI/desert.txt

[35] Kutzee, C.M. Barbarları gözləyərkən / C.M.Kutzee, ing. tərc. ed. Ü.Nəsibbəyli. – Bakı: Qanun Nəşriyyatı, – 2014. – s.17-18

olaraq mövcudluğu öz təsdiqini tapmır, sadəcə olaraq, insanları mənəvi gərginlikdə saxlayan düşmən obrazının süni şəkildə “qidalandırılması” baş verir. Lakin fərq ondan ibarətdir ki, Kutzeenin İmperiyasında bu mifik düşmən obrazı kütləvi psixoz yaradan vasitə kimi istifadə edilir. Butsatti real həyatın (şəhərin) həyat imitasiyası ilə (Tatar çölündən hücumu dəf etmək hazırlığında olan qarnizon həyatının) dixotomiyasından insan və cəmiyyət, insan və yaşadığı həyat, onun can atdığı ideal problemlərilə bağlı fərqli məqamlara toxunur. Kutzee romanında belə dixotomiya mövcud deyil: bütün həyat barbar hücumunun gözləntisinə, o məşum hadisəyə hazırlığa köklənib. Hər yerdə, hər mənfur hadisədə barbar izi axtarılır. İnsanlar barbar mifinə özündən qaçış, problemlərin real kökünə vararaq həqiqətlə üz-üzə qalmaq işgəncəsindən qurtulmaq yolu kimi üz tutur. Bununla belə, məhz həmin gözlənti məqamı Butsatti və Kutzee romanlarının ortaq cəhətlərindən birini, bəlkə də ən başlıca paralellik məqamını təşkil edir. Hər iki romanı yaxınlaşdıran digər cəhət əsərin qəhrəmanlarının iradə iflici vəziyyətini yaşaması, hətta onlara azad olma, həyatlarını köklü şəkildə dəyişmə imkanlarının təqdim edildiyi şəraitdə belə bundan imtina etmələridir.

***“C.M.Kutzeenin “Barbarları gözləyərkən” romanında “özgə” xofu sindromu və insanın “fərqliliyə” qarşı aqressiyasının etimologiyası haqqında”*** paraqrafında qeyd olunur ki, özündən fərqli olan qarşısında xof, nabələdliyin yaratdığı qorxu qarşısında acizlik və bu acizliyin əks üzü kimi aqressiyanın inkişaf etməsi ümumilikdə insan psixologiyası üçün səciyyəvi xüsusiyyətdir. Romanda İmperiya vətəndaşları üçün “başqalar” artıq daha aşağı məxluqatdırlar. Elə bir məxluqat ki, onları hətta heyvanlara qarşı tətbiq edilməyən işgəncə alətlərilə döymək və bu amansız mənzərədən hətta zövq almaq olar. Barbarların işgəncə səhnəsini təsvir edən Kutzee Magistrın dilindən yazır: *“Ətrafımda hər kəsin, hətta gülümsəyənlərin belə, üzündən nə qəzəb, nə də qaniçənlik, eyni maraq ifadəsi oxunur. Özü də bu maraq o qədər şiddətlidir ki, sanki bu məchul aclıq hissini yatırmağa məhkum olunmuş gözlərdən başqa bütün orqanların fəaliyyəti dayanıb. Əsirlərə işgəncə verən əsgərlər yavaş-yavaş yorulmağa başlayırlar. Aralarından biri əlini belinə qoyub ağır-ağır nəfəs alır,*

*gülümsəyə-gülümsəyə izdihama göz vurur”.*[36] Göründüyü kimi, “başqa olan” qarşısında belə aqressiv maraq və qeyri-tolerant rəftar müasir Qərb multikulturalizm ideyaları və onun carçısı olduğu “fərqlilik prezumsiyası” prinsipilə daban-dabana ziddir. Lakin həmin tolerant və multikultural toplum üçün yeganə mümkün olan fərdlərarası münasibət səviyyəsinə yüksələnə qədər Avropa və Qərb sivilizasiyası da eynilə “Barbarları gözləyərkən” romanında təsvir olunan “başqalarının xofu”, “özgə olanın qəbul edilməməzliyi” sindromlarını dəf etmək mərhələsini yaşamışdır.

***“C.M.Kutzeenin “Barbarları gözləyərkən” romanında günahkarlıq kompleksinin ağırlığının “İncil” allüziyaları fonunda səciyyələndirilməsi”*** adlanan paraqrafda qeyd edilir ki, “İsanın uşaqlığı” (2013-ci il) adlı romanın müəllifi yaradıcılığı boyu bir çox əsərlərində “İncil” allüziyalarından geniş şəkildə yararlanmışdır. Hətta yazıçının Nobel nitqi də yetərincə “İncil” “göndərmələri” zənginliyilə seçilir[37]. Magistr obrazı roman boyu dinamik inkişaf nümayiş etdirdiyindən və bəzi məqamlarda ambivalent mahiyyətilə seçildiyindən onun formalaşmasında da “İncil” allüziyalarının təzadlılığının müşahidə edilməsi təsadüfi sayıla bilməz. Belə ki, əsərdə təsvir edilən hadisələrin ilk mərhələsində öz komformizmilə daxili çəkişmələr aparan Magistratın sonrakı etapda daha kəskin mövqe ortaya qoyması buradakı “İncil” allüziyalarının da bir növ ambivalentliyini təmin etmişdir. Birinci mərhələdə Magistratın davranışında Pontiy Pilatın həlledici “missiya”sının “əks-səda”sı, onun konformizminin acı fəsadları və yaratdığı vicdan əzabı faktoru qabardıldığı halda, hadisələrin gedişatı boyunca bir obraz kimi “açılan” Magistratın nə az, nə çox İsa Peyğəmbər obrazına “göndərmə”lər əsasında formalaşdırıldığı nəzər-diqqətdən qaçmır. Maraqlıdır ki, eynilə Pontiy Pilat kimi həm idarəedici, həm də məhkəmə (hakim) funksiyasını icra edən Kutzeenin Magistratı da həm hakim, həm də İmperiya maraqlarını qoruyan idarəçilik iyerarxiyasının üst mövqeyindəki şəxsdir. Məlumdur ki, Pontiy Pilat

---

[36] Kutzee, C.M. Barbarları gözləyərkən / C.M.Kutzee, ing. tərc. ed. Ü.Nəsibbəyli. – Bakı: Qanun Nəşriyyatı, – 2014. – s.181

[37] Эдельштейн, М. Жизнь и время Джона К. Дж.М.Кутзее. В ожидании варваров. Романы. / М. Эдельштейн. – СПб., “Амфора”, – 2004. – 463 с.

əslində əyyaş həyat tərzi sürmüş, Yəhudi dövləti ərazisindəki bir çox haqsızlıqlara rüşvət müqabilində göz yummuşdu.[38] Kutzee əsərin əvvəlində Magistratı özünün sakit həyat arzusuna qapılaraq bir çox həqiqətləri görməməzlikdən gəlməyə çalışan, qadınlara qarşı xüsusi zəifliyilə seçilən qoca, lakin iştahlı, şəhvətli, zarafatcıl adam kimi canlandırır. Pontiy Pilatla paralelliyə yol açan əsas məqam da məhz, sakit həyat həvəsində olan Magistratın İmperiya maraqlarının qorunması naminə törədilən dəhşətlərə qarşı göz yummaq, ətrafa yayılan ah-nalə, insan fəryadlarına qarşı qulaqlarını tıxamaq arzusudur. Pontiy Pilatla paralellik məqamına diqqət çəkən digər analogiya Kutzeenin Magistratının "əl yumaq" ritualına xüsusi həssaslıqla yanaşması ilə bağlıdır. Xatırladaq ki, "İncil" mətnlərindən məlum olduğuna görə, Pontiy Pilat İsa Peyğımbərin çarmıxa çəkilməsilə bağlı qərarı qəbul etdikdən sonra əl yumaq ritualını gerçəkləşdirmişdir. Magistrat barbarlara işgəncə verən polkovnik Coll və zabitlərin sonradan insan içinə necə çıxması ilə, "boğazlarından necə tikə gedə bilməsilə" maraqlanarkən məhz əl yumaq, təmizlənmək ritualının icra edilib-edilməməsi məqamına əsər boyu bir necə dəfə diqqət çəkir. Dawn Grieve qeyd edir ki, İsa Peyğəmbərin vaxtilə öz şagirdləri qarşısında "alçalması" səhnəsilə ortaya qoyulan anlam, qoca hakimin barbar gənc qadının ayaqlarının yuyulması ritualıyla mühüm paralelliyə malikdir. Qoca hakimin gənc barbar qadının İmperiya zabitləri tərəfindən zədələnmiş ayaqlarını xüsusi ehtiyatlılıq və qayğı ilə masaj edib yuması bu ritual vasitəsilə sivilizasiya daşıyıcısı olan İmperiya Magistratının "ibtidai" barbarlardan üzr istəməsi kimi ortaya çıxır[39].

**"C.M.Kutzeenin yaradıcılığında insanın əbədi tənhalığı, şəxsiyyət deformasiyası və ruhi sarsıntılardan sonrakı psixoemosional bərpasının "anatomiyası"** adlanan III fəsildə ilk olaraq ***"C.M.Kutzeenin "Rüsvayçılıq" romanı – "düşmə"dən sonrakı həyatın "elegiyası" kimi"*** problemi araşdırılır. C.M.Kutzeenin 1999-cu ildə *Booker Prize* əldə etmiş "Rüsvayçılıq"

---

[38] Ельницкий, Л.А.Понтий Пилат в истории и в христианской легенде // Прометей. М.: Мол. гвардия, – 1972. Т.9, – с. 316-319.

[39] Grieve, D. Confrontation And Identity In The Fiction Of J.M.Coetzee / D.Grieve. – Edith Cowan University, – 1999. – 217 p.

(Disgrace) romanı istər postaparteid dövründəki ilk yaradıcılıq sınağı olması, istərsə də əsərdə qoyulan problemlərin kəskinliyi etibarilə xüsusi diqqətə layiqdir. Əsər amansız obyektivliklə ölkə gerçəkliklərini, yəni aparteidin çöküşündən sonra çoxdan gözlənilən milli konsensusun əldə edilməsinin ağrılı yolunun başlanğıcında baş verən prosesləri, ağdərili toplum fərdlərinin apatik reaksiyası ilə revanşizm ab-havasında qaradərili əzilmiş kütlənin bitmək bilməyən qəzəbinin ortaq nöqtədə birləşməsinin qeyri-mümkünlüyü situasiyasını əks etdirir. Yetərincə pessimist notlarda qələmə alınmış roman əslində Kutzeenin özünün həmin dövr ölkəsindəki siyasi-ictimai situasiyaya fərdi baxışını tam çılpaqlığı ilə əks etdirir. Kutzeenin bu ağır insani faciə – şəxsiyyətin çöküşü və çöküşdən sonrakı islah və özünübərpa kimi ağrılı yolun xronologiyasını, psixoemosional "anatomiya"sını qələmə aldığı əsərinin məcazi anlamda antik elegiyalarla əlaqədə nəzərdən keçirilməsi təsadüfi deyil. Qəhrəmanın özünün şüuraltı şəkildə həyat leytmotivi kimi qəbul etdiyi və daim içində təkrarladığı *Call no man happy until he is dead"* (*Ölməyincə heç kimə xoşbəxt demə*) fikri onun bir növ həyat konstantasına çevrilir. Romanın baş qəhrəmanının Sofoklun ölməz faciəsilə allüzial fon yaratması romanın qayəsinin açıqlanmasına xidmət edir. Belə ki, çalışdığı universitetdə gedən "yenidənqurma" işləri eybəcər hala gələndən sonra Devid Luri özünü təcrid olunmuş hiss edir, iş yoldaşları ilə arasındakı uçurum daha da dərinləşir. *"Tədris etdiyi materiala heç bir maraq göstərmədiyindən tələbələrə yaxşı təsir bağışlaya bilmir. Dərs vaxtı tələbələrin fikirləri başqa yerdə olur, adını tez-tez yadlarından çıxarırdılar. Boynuna almaq istəməsə də, tələbələrin laqeydliyi onu həddən artıq incidir. Buna baxmayaraq, Devid tələbələr, onların valideynləri və dövlət qarşısındakı öhdəliklərini tam məsuliyyətlə yerinə yetirir".*[40] Onun qadınlarla münasibəti yalnız bir neçə saatlıq, hər iki tərəfə uyğun və heç bir məsuliyyət daşımayacaq dərəcədə adi idi. Devid Luri qadınlarla olan münasibətini Floberin "Madam Bovari" romanındakı Emma Bovari ilə müqayisə edir, onun kimi "ruhsuz", həyatı ilə baş

[40] http://royallib.com/read/Coetzee_J/Disgrace.html#0

verənləri artıq dəyişə bilməyəcəyini anlayıb hər şeyi olduğu kimi görməyə adət etmişdir.

"Reallıqdan qaçış – insanın mənəvi "çöküş"ünün həlledici mərhələsi kimi" təhlili kontekstində qeyd edilir ki, Bayron sindromuna mübtəla olan Devid Lurye öz həyatının sonrakı, yəni "düşmə"dən sonrakı dövründə də Bayron yaradıcılığına xəyalən tez-tez müraciət etməsi onun bu qəhrəman obrazının sehrinə mübtəla olduğunu söyləməyə əsas verir. Devid onu gözləyən "rüsvay-çılıqdan" xəbərsiz hər il yaşadığı "yaşamalı olduğu" həyatını davam edir, heç bir cavabdehlik daşımır. Bu həyat ona o qədər "sərf" edir ki, əlli iki yaşını haqlamasına baxmayaraq onu dəyişmək fikrindən uzaq olur. Evinə apardığı qız ondan nəyinki otuz yaş kiçik, hətta himayəsi altında olan tələbəsi idi. Devid etdiyi bütün əməllərinə romantik don "geyindirir", "rüsvayçılığına" poetik yanaşır, sevgini musiqi və şərabın, şairlərin ilham pərisi adlandıraraq, dolayısı etdiklərinə "bəraət" qazandırırdı. Melani ilə söhbətlərində ingilis klassik poeziyasından danışır, *Bayron, Bleyk, Vordsvordan* misallar gətirirdi: *"Şərab və musiqi: qadın və kişinin yerinə yetirməli olduğu ritual...Amma təcrübəmdən bilirəm ki, poeziya ya ilk dəfədən insana zövq verir, ya da, ümumiyyətlə, heç nə demir. İldırım çaxması kimi. Aşiq olmaq kimi".*[41]

***"Özünəqayıdışın ağrılı yolu: "alçaldılmış və təhqir olunmuşlar"ın həyata dönüm "nöqtə"si"*** bəndində qeyd olunur ki, əsər boyu öz həyatına müəyyən paralelliklər prizmasından baxan Lurinin mənəvi "düşmə"dən sonra qızı ilə birgə yaşadığı fermada itlərin müalicəsi vasitəsilə öz islah yolunu seçməsi, əslində ilk baxışdan seçimsizlik kimi görünən situasiyada bu mənəvi bərpa yoluna üstünlük verməsi heç də təsadüfi deyil. Tədqiqatçılar təqib və təzyiqlərə məruz qalan küçə itlərinin durumu ilə aparteid rejimində qaradərililərin vəziyyəti arasında müəyyən simvolik paralelliyin izlənildiyini[42] və Luryenin həmin itlərə xidmət yolu ilə öz daxili təkəbbüründən azad olma yolunu tutduğunu vurğulayırlar.

---

[41] http://royallib.com/read/Coetzee_J/Disgrace.html#0

[42] Dailey, V. A Review and Commentary on Disgrace by J. M. Coetzee // English Literary File, – 2010. Vol. 2, – p. 7-8.

***"Postkolonial feminizmin postaparteid mərhələsi: qadın azadlıqlarının məhdudlaşdırılmasının "qaradərilik" revanşizmilə sintezi"***nin təhlilində postkolonial feminizmin postaparteid mərhələsi geniş şəkildə təhlil edilir və qadın azadlıqlarının məhdudlaşdırılmasının "qaradərilik" revanşizmilə sintezi məsələsinin postaparteid toplumundakı yeni reallıqlar fonunda təhlili aparılır. Devid Luryenin qızı Lüsi təkcə gender ayrı-seçkiliyinin deyil, eləcə də postaparteid ölkə üçün xarakterik olan "əksinə irqi seqreqasiya"nın qurbanıdır. Onun düşdüyü durumda postkolonial feminizmin diametral əks mənzərəsi, yəni avrosentrik təkəbbür deyil, qaradərili kəsimin revanşizmi faktoru həlledici rol oynayır. Lüsi zorakılığa, ayrıseçkiliyə məruz qalır, lakin seçdiyi həyatı məğrur addımlayır, "qaradərili" toplumda özünə layiqli yer axtarır.

***"C.M.Kutzeenin "Ölkənin ürəyində" romanında insan tənhalığı faciəsinin əksi və ya zorakılığın mental fəsadları haqqında"*** paraqrafda dünya ədəbiyyatı tarixində "kolonial irqçiliyə və tüğyan edən zorakılığa həsr edilmiş ən depressiv əsərlərdən" sayılan[43] "Ölkənin ürəyində" (In the Heart of the Country) əsərinin təhlili yer alır. Əsərin Kutzee yaradıcılığındakı xüsusi mövqeyini təmin edən başlıca cəhət onun təhkiyə modeli və oxucu təxəyyülünü və təhlil qabiliyyətini işə salmaqla real olanla irreal olanı fərqləndirmək "oyun"una dəvət etməsidir. Tədqiqatçıların da xüsusilə vurğuladıqları kimi, yazıçının təklif etdiyi narrativ modeli bilavasitə psixoloji problemlərin latent mərhələdən aşkar stadiyaya keçidin xarakterik xüsusiyyətlərini əks etdirməyin güclü psixologizmilə seçilir. [44] Kutzee əsərlərinin psixonarrativini araşdırmış N.P.İzotovanın da tam haqlı olaraq diqqət çəkdiyinə görə, "baş qəhrəman qadının dilindən qələmə alınmış psixonarrativ əslində özü ilə psixoloji avtonarrativi təcəssüm etdirir, hansının ki, əsas xüsusiyyətləri sırasında subyektivlik, "etiraf effekti"ni" qeyd etmək

---

[43] Book Review: In the Heart of the Country, by J.M.Coetzee: [Electronic resource] / URL: http://inverarity.livejournal.com/105213.html

[44] Lopez, M.J. Acts of Visitation: The Narrative of J.M.Coetzee / M.J.Lopez. – Rodopi. Amsterdam-New York, – 2011. – 374 p.; Heister, H. Mirror Neurons and Literature: Empathy and the Sympathetic Imagination in the Coetzee's fiction // MediaTropes eJournal, – 2014. Vol IV, № 2, – p. 98-113.

olar”[45]. Roman 266 rəqəmlə nömrələnmiş bölmələrdən ibarət olub, baş qəhrəman Maqdanın yaddaşında canlanır. Bütün əsər boyu reallıqla təxəyyül arasında sərhəd itir və hadisələrin həqiqətdə baş verdiyi, yoxsa qəhrəmanın təxəyyülünün məhsulu olduğunu müəyyən etmək olmur. Baş verənlər Maqdanın xəyalları olsa belə əsər milli mövzusu kimi Afrika səhralarında yaşayan insanın çətin həyat tərzi və düşdüyü şəraitin qurbanı kimi təsvir olunur. Maqda yaşadığı cəmiyyətin qurbanıdır. Dəfələrlə bunu qeyd edən Maqda özü kimi “qarımış” qızların varlığını yaşadıqları həyatla bağlayır, ölkəsinin “həyat”ının onun həyatına təsirində görürdü. A.Broyard romanın təhlilinə həsr edilmiş məqaləsində haqlı olaraq Kutzeeni “isteriya ustası” olaraq dəyərləndirir və Maqdanın yaşadığı fermanı bütün heyvanların oynamağa öz yeri olduğu halda, Maqdanın sığınmağa öz küncü olmayan bir yer kimi səciyyələndirir[46]. Maqda atasının fermasında bir kölgə, fantom kimi mövcuddur: o, həm var, həm də yoxdur, əslində var ikən yoxdur. Bu məqamın özü də bir növ belə demək mümkünsə, real olanla irreal olanın bir sintezi kimi ortaya çıxır.

Dissertasiyanın **“Nəticə”** hissəsində aşağıdakı elmi müddəalar ümumiləşdirilir:

– C.M.Kutzeenin yaradıcılığında insan və cəmiyyət problemi əsasən “kiçik insan”ın toplum basqısı və kütlənin haqsızlığına qarşı “böyük dirənişi”, insanın şəxsiyyət “iflic”liyi ilə müşayiət olunan “beyinyuma” və kütləvi psixoz durumunun təsviri ilə önə çıxır. Bu kimi problemlər yazıçının yaradıcılığında sosial, psixoloji və mənəvi fəsadlarla əlaqəli əks edilir.

– İnsan fərqliliyinin, yəni onun dəri rənginə, fiziki özəlliyinə, intellektual səviyyəsi, düşüncə tərzi və ümumiyyətlə, təbii əqli imkanlarına görə, habelə cəmiyyətdəki proseslərə münasibətdəki fərqli düşüncəsinə, vətəndaş mövqeyinə görə kütlədən seçilməsi Kutzee yaradıcılığından “qırmızı xətt”lə keçir və yazıçının yaradıcılığının müxtəlif dönəmlərinə aid “Barbarları gözləyərkən”,

---

[45] Изотова, Н.П. Лингвистика психонарратива в романах Дж.М.Кутзее: параметры изучения // Science and Education a New Dimension. Philology, – 2015. III (9), Issue: 44, – c. 45-49.
[46] Broyard, A. One Critic's Fiction // The New York Times. – 1977, 18 September.

“Maykl K.-nın həyatı və zəmanəsi”, “Ölkənin ürəyində”, “Rüsvayçılıq”, “Elizabet Kastello” və s. romanlarında ən fərqli aspektlərdən özünü büruzə verir.

– Kutzeenin “Maykl K.-nın həyatı və zəmanəsi” adlı romanında Mayklın fiziki qüsuru və intellektual səviyyəsinin müəyyən yetərsizliyi müəllif tərəfindən “kiçik insan”ın yaşam mücadiləsi problemlərinin işıqlandırılması üçün əlavə simvolik keçid kimi istifadə edilir və yazıçı alleqorik təhkiyə mexanizmlərindən yaralanmaqla aparteid rejimi dönəmində açıq dilə gətirilməsi yasaq olan insan-cəmiyyət qarşıdurmasının mühüm məqamlarını bu dolayı narrativ mexanizmlər vasitəsilə oxucusuna çatdırmağa müvəffəq olur.

– Kutzeenin “Maykl K.-nın həyatı və zəmanəsi” romanında fərdə cəmiyyətin aqressiv müdaxiləsi və şəxsiyyətə qarşı yönəlik fəaliyyətləri qarşısında insanın mənəvi paklığını qorumaq, öz ideallarına sadiq qala bilmək dirənişi araşdırılır və müəllif inqilabi dəyişimlərə köklənməmiş “kiçik insan”ın həmin kütləvi psixoz durumu üçün ən optimal özünüqoruma mexanizminin cəmiyyətdən könüllü təcrid olması qənaətini dilə gətirir. Beləliklə, Kutzeenin əsərində “kiçik insan”ın həm mərhəmətin, həm də seqreqasiyanın aqressiv müdaxiləsindən qurtulmağa çalışdığı önə çıxır.

– Kutzeenin “Elizabet Kastello” romanında insan və cəmiyyət probleminin ekzistensial-humanist müstəvidə təhlili onu deməyə əsas verir ki, müəllifin alter-eqosunu ifadə edən əsərin baş qəhrəmanı yazıçının özünün insan və cəmiyyət qarşıdurmasının ən fərqli aspektlərilə bağlı məsələlərə münasibətini açıqlayır, ədəbiyyatla, tarixlə, heyvanlara münasibətlə, ümumiyyətlə humanitar fəaliyyətlə bağlı mövqeyini dilə gətirdiyini görürük.

– Kutzeenin yaradıcılığında insanın cəmiyyət basqısı qarşısında acizliyi və bu “acizliyin qisası”nın dərin psixoloji məqamlarının araşdırılması belə nəticəyə gəlməyə əsas verir ki, yazıçı şəxsiyyəti üçün xarakterik olan və bu səbəbdən də qəhrəmanlarının obrazlarında dilə gətirdiyi “ağdərililik kompleksi” və ödənməyəcək borcun ağırlığı Kutzeenin əsərlərindən ana xətt kimi keçir. Kutzee öz yaradıcılığında multikultural dəyərlərə köklənməklə aparteid rejimi arasındakı kəskin ziddiyyətin yol açdığı psixoloji stress və şəxsiyyət deformasiyalarının işıqlandırılmasına geniş yer verməsi önə çıxır.

– “Barbarları gözləyərkən” romanında insanın cəmiyyət basqısına əks-təsiri, totalitar ekspansiyanın mənəvi-etik fəsadları, cəmiyyət basqısının sürüklədiyi psixoloji durumun təhlil onu deməyə əsas verir ki, yazıçı istibdadın insan toplumunun idarə edilməsi üçün istifadə etdiyi “beyinyuma” mexanizmlərini alleqorik tərzdə ifşa edir. Köləliyin anatomiyasını izləyən müəllif qorxunu – şəxsiyyəti aşılayan faktor kimi dəyərləndirir. Totalitarizmə qarşı manifest kimi dəyərləndirilə bilən romanda Britaniya-ingilis “əlahiddəliyi”nin Afrika təzahürünün alleqorik təfsiri kimi özünü göstərir.

– “Barbarları gözləyərkən” romanında insan və cəmiyyət probleminin qoyuluşu K.Kavafisin “Barbarları gözləyərkən” və D.Butsattinin “Tatar çölü” əsərlərilə müqayisə əsasında araşdırılır və müəyyən edilir ki, hər üç əsərdə totalitar rejimin insanları “özgə” xofu sindromu vasitəsilə idarə etməsi, psixoloji yönləndirməsi ifşa olunur. Məlum olur ki, “fərqliliyə” qarşı aqressiyanın etiologiyasına yaxşı bələd olan totalitar rejimlər insanın namüəyyənlik qarşısında xofundan elə onun özünün (insanın) idarə edilməsi üçün ustalıqla istifadə etməyi bacarırlar.

– Kutzee romanının təhlili postkolonial ideya-fəlsəfi fikrinin əsas postulatlarından biri olan “Othering” konsepsiyasının yazıçının yaradıcılığında yerli aparteid gerçəkliyindən tətbiq edildiyini söyləməyə əsas verir. Müəllif fərqliliyi, cəmiyyətdən könüllü özünütəcridi cəmiyyətə etirazın forması kimi dəyərləndirir, habelə məcburi kənarlaşdırmanı insanın özünü “kəşf”inin ən optimal yolu kimi qiymətləndirir.

– C.M.Kutzeenin “Barbarları gözləyərkən” romanında günahkarlıq kompleksinin ağırlığı “İncil” allyuziyaları fonunda, konkret olaraq, Magistrat obrazının timsalında Pontiy Pilat, İsa Peyğəmbər “göndərmələri”nin yaratdığı alleqorik təhkiyə formasında aşkarlanır.

– C.M.Kutzeenin yaradıcılığında insanın əbədi tənhalığı, şəxsiyyət deformasiyası və ruhi sarsıntılardan sonrakı psixoemosional bərpasının “anatomiyası” problemləri özünün hərtərəfli inikasını tapır. Konkret olaraq, yazıçının “Rüsvayçılıq” romanında insanın mənəvi çöküşündən sonrakı həyatın “elegiyası” kimi qələmə alınmış, insan ruhunun əbədi sərgərdanlığı haqqında müəllifin görüşləri dilə gətirilmiş, insanın mənəvi deqradasiyasının

həlledici mərhələsi kimi reallıqdan qaçışın fəsadları və ingilisdilli ədəbiyyat üçün xarakterik olan Bayron sindromunun ölkə reallıqları zəminindəki interpretasiyası təqdim edilmişdir.

– Postaparteid romanı olan “Rüsvayçılıq” yeni reallıqlar fonunda “ağdərililik” yükünün yeni aspektlərini ortaya qoyur və “alçaldılmış və təhqir olunmuşlar”ın həyatadönüm “nöqtə”sinin, özünəqayıdışın ağrılı yolu kimi məşəqqət və mənəvi iztirablarının təfsilatı ilə qavranılır.

– “Rüsvayçılıq” romanında postkolonial feminizmin postapateid mərhələsinin geniş şəkildə təhlili onu deməyə əsas verir ki, yazıçı qadın azadlıqlarının məhdudlaşdırılmasının “qaradərilik” revanşızmilə sintezi məsələsinin postapateid toplumundakı yeni reallıqlar fonunda mənalanmasına xidmət edir.

– C.M.Kutzeenin “Ölkənin ürəyində” romanında insan tənhalığı, faciəsi və zorakılığın mental fəsadları real və irrealın çulğalaşması fonunda insanın ətrafından “qopması”nın xronologiyası kimi izlənilir, baş qəhrəman Maqdanın “paralel reallığı” fonunda bir xəstəliyin tarixçəsi araşdırılır. Mazoxizmdən depressiv psixoza keçidin anatomiyasının təhlil edildiyi romanda “ünvanını səhv salmış” sevginin faciəsi və onun psixoloji fəsadlarının bədii əksi önə çəkilir.

***Tədqiqat işinin əsas müddəaları müəllifin çap olunmuş aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:***

1. İsmizadə, S.Y. Con Kutzeenin romanları tənhalığın simvolu kimi // – Bakı: ADU, Dil və ədəbiyyat, – 2015. № 4, – s.243-246.
2. İsmizadə, S.Y. C.M.Kutzeenin “Barbarları gözləyərkən” əsərində köləliyin anatomiyası. // – Bakı: “Mütərcim”, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2016. № 1, – s.157-162.
3. İsmizadə, S.Y. C.M.Kutzeenin “Barbarları gözləyərkən” romanında insan və cəmiyyət probleminin qoyuluşu (K.Kavafisin “Barbarları gözləyərkən” və D.Butsattinin “Tatar çölü” əsərlərilə müqayisə əsasında) // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2016. № 1(97), – s.233-236.

4. İsmizadə, S.Y. Kutzeenin “Ölkənin ürəyində” romanında tənhalığın faciəsi və ya zorakılığın fəsadları haqqında // – Bakı: AMEA, Ədəbi Əlaqələr, – 2016. Toplu X, – s. 78-83.
5. İsmizadə, S.Y. C.M.Kutzeenin “Rüsvayçılıq” romanında mənəvi “çöküş” problemi. // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2016. № 2(98), – s.225-228.
6. İsmizadə, S.Y. C.M.Kutzeenin yaradıcılığında insanın cəmiyyət basqısı qarşısında acizliyi və “acizliyin qisası” məqamı (“ağdərililik kompleksi” və ödənməyəcək borcun ağırlığı fonunda) // “Gənc tədqiqatçıların IV beynəlxalq-elmi konfransı”, – Bakı: Qafqaz Universiteti, – 29-30 aprel, – 2016, – s.1195-1196.
7. İsmizadə, S.Y. C.M.Kutzeenin yaradıcılığına fərqli genealogiyalı ədəbiyyatların təsiri (insan və cəmiyyət problemi kontekstində) // “Xarici dillərin tədrisinin aktual problemləri” mövzusunda konfrans, – Bakı: Azərbaycan Dillər Universiteti, – 5-6 may, – 2016, – s.476-478.
8. İsmizadə, S.Y. C.M.Kutzeenin yaradıcı şəxsiyyətinin formalaşmasında multikultural ideologiyanın aparteid reallığı ilə ziddiyyəti // Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransı, – Bakı: – 24-25 may, – 2016, – s.558-560.
9. İsmizadə, S.Y. Koqnitiv metafora – yaradıcı şəxsiyyətin təhkiyə modelinin əsas ideya “kondensator”larından biri kimi (C.M.Kutzeenin “Rüsvayçılıq” romanı əsasında) // Koqnitiv və tətbiqi dilçiliyin aktual problemləri adlı Beynəlxalq konfrans, – Bakı: – oktyabr, – 2016, – s.180-182.
10. İsmizadə, S.Y. C.M.Kutzeenin “Maykl K.-nın həyatı və zəmanəsi” romanında insanın mənəvi gücü və cəmiyyətlə qarşıdurması problemi // – Bakı: BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2017. №4, – s. 143-146.
11. İsmizadə, S.Y. Postkolonial feminizmin postaparteid mərhələsində qadın azadlığı // – Bakı: AMEA, Ədəbi Əlaqələr, – 2017. Toplu XI, – s. 72-77.

12. Ismizade, S.Y. The problem of man and society in the novel "Elizabeth Costello" by J.M.Coetzee // – Almata: Bulletin, Series "Philological sciences", – 2017. № 4 (62), – s.183-190.
13. İsmizadə, S.Y. C.M.Kutzee yaradıcılığında insan və cəmiyyət probleminin alleqorik təsvirinə dair // – Bakı: BSU, Elmi əsərlər (Dil və ədəbiyyat seriyası), – 2018. №1, – s. 197-202.
14. İsmizadə, S.Y. C.M.Kutzeenin "Maykl K.-nın həyatı və zəmanəsi" romanında "kiçik insanın" böyük arzuları (F.Kafka və C.M.Kutzee romanlarının ədəbi paralelləri əsasında) // – Bakı: BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2018. № 3, – s.112-116.
15. Ismizade, S.Y. A glance at John Maxwell Coetzee's creativity (in the context of human and social problems) // – Canada: Vancouver, 9th International Conference "Science and Society– Methods and Problems of Practical Application", – 2020, – 15 February, – p.54-57.
16. İsmizadə, S.Y. Kutzeenin "Elizabet Kostello" və Anarın "Otel otağı" əsərlərində ziyalı meyarı və şəxsiyyət problem // – Bakı: ADU, Elmi xəbərlər, – 2022. № 2, – s.103-110.
17. Ismizade, S.Y. Representation of the problem of Man and Society in J.M.Coetzee's novels // LV international Scientific and Practical Conference "Advances in science and technology". – Moscow: 15 September – 2023, – p.124-126.

Dissertasiyanın müdafiəsi 13 noyabr 2023-cü il tarixində saat 12.00 Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "04" oktyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.10.2023.

Kağızın formatı: 60x84 1/16

Həcm: 47932 işarə

Tiraj: 100 nüsxə